**Azərbaycan Tibb Universiteti**

**Uşaq müəssisələrinin gigiyenası**

Fənni üzrə

İŞÇİ TƏDRİS PROQRAMI

(SİLLABUS)

**"TƏSDİQ EDİRƏM**

**"Uşaq - yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı"**kafedrasının müdiri:

dos. Ş.M.Balayeva

İmza _______________

**FƏNNİN KODU:** İPF-B57

**FƏNNİN NÖVÜ:** məcburi

**FƏNNİN TƏDRİS SEMESTRİ:** VI kurs - XI semestr

**FƏNNİN KREDİTİ:** 4 kredit

**FƏNNİN TƏDRİS FORMASI:** əyani

**FƏNNİN TƏDRİS DİLİ:** azərbaycan, rus

**FƏNNİ TƏDRİS EDƏN MÜƏLLİMLƏR**:

t.e.n., dos. Ş.M. Balayeva

t.e.n., dos. N.Q.Süleymanzadə

t.e.n., dos. S.Ə.Həsənova

t.e.n., dos. Z.Q.İsmayılova

**KAFEDRANIN ƏLAQƏ NÖMRƏSİ:** **012 595-30-14**

**E.mail:** **department_cahoh@amu.edu.az**

**PREREKVİZİTLƏR:**

Fənnin tədrisi üçün öncədən tədrisi zəruri olan fənn: Təhsil fəaliyyətinin gigiyenası.

**KOREKVİZİTLƏR:**

Bu fənnin tədrisi ilə eyni vaxtda başqa fənlərin də tədris olunması zərurəti yoxdur.

## KURSUN TƏSVİRİ:

Bu fənn uşaq orqanizminin normal böyümə və inkişafı üçün əsas şərt olan uşaq məişət əşyalarını, onları əhatə edən əlverişli xarici mühit şəraitinin yaradılması üçün uşaq və yeniyetmə müəssisələrinin planlaşdırma və inşaatının gigiyenik prinsiplərinə olan tələbləri öyrənməklə məşğul olur.

## KURSUN MƏQSƏDİ:

Fənnin əsas məqsədi: uşaq məişət əşyalarına olan sanitariya gigiyenik tədqiqat üsullarını mənimsəmək, uşaq və yeniyetmə müəssisələrinin planlaşması və tikintisinə olan gigiyenik tələbləri öyrənmək, layihələrinin sanitariya-gigiyenik ekspertizası və sanitariya rəyini tərtib etmək, bu sahədə qanunverici və normativ sənədlərlə tanış olmaqdır.

## KURSUN NƏTİCƏLƏRİ:

Fənnin mənimsənilməsi nəticəsində tələbələr müxtəlif tipli uşaq və yeniyetmə müəssisələrinin sanitariya-gigiyenik ekspertizasının aparılmasını (torpaq sahəsinin, binanın və sanitariya texniki tikililəri) və lahiyə üzrə əsaslandılmış rəyin tərtibini, uşaq məişət əşyalarına olan gigiyenik tələblərə müvafiq tibbi-profilaktiki məsələlərinin həllini bacarmalıdırlar.

## FƏNNİN MÜHAZİRƏ MÖVZULARI:

| № | Mövzuların adı | Saat |
|---|---|---|
| 1. | Uşaq məişət əşyalarının gigiyenası. Uşaq paltarı, uşaq oyuncağı və ayaqqabılarına olan gigiyenik tələblər, onların hazırlanmasında istifadə olunan polimer və sintetik materialların gigiyenik qiymətləndirilməsi. ***Predmet:*** *Uşağın həyatında oyuncaqların rolu. Oyuncaqların istehsalında istifadə olnan xammal və materiallar. Yaş, fəaliyyət növü və ilin fəslindən asılı olaraq uşaq paltarına dair gigiyenik tələblər. Məktəbəqədər, erkən məktəbəqədər və məktəb yaşlı uşaqların paltarı. İdman paltarı. Emalatxanada iş üçün, istehsalatda və kənd təsərrüfatı işləri icra edərkən xüsusi geyim. Ayaqqabı, onun konstruksiyası və materialına olan gigiyenik tələblər.* | 2 |
| 2. | Uşaq məişət əşyalarının gigiyenası. Kitaba вə mebelə olan gigiyenik tələblər, onların щazırlanmasında istifadə materialların gigiyenik qiymətləndirilməsi. ***Predmet:*** *Dərsliklərə, tədris vəsaitləri və ləvazimatlarına, olan gigiyenik tələblər. Tədris prosesində texniki vəsaitlərin (kompüter, kino, televiziya və b.) tətbiqinə dair gigiyenik tövsiyələr.Tədris mebeli və avadanlığının (məktəbəqədər müəssisələrdə masa və stul, şagird partası, masası və stul, laborator masa, emalatxanada məngənə, dəzgah və s.) tədris-tərbiyə və əmək şəraitinə müvafiqliyi, onlara olan gigiyenik tələblər.* | 2 |
| 3. | Uşaq və yeniyetmə müəssisələrinin planlaşdırılma və inşaatının gigiyenik prinsipləri. Məktəbəqədər uşaq müəssisələrinin planlaşdırılmasına olan gigiyenik tələblər, məktəbəqədər müəssisələrdə qrupların təcrid prinsipi. | 2 |

| | | |
|---|---|---|
| | **Predmet:** *Uşaq və yeniyetmə müəssəsilərinin planlaşdırılma və inşaatı məsələləri üzrə qanunverici və normativ sənədlər . Uşaq və yeniyetmə müəssisələrinin tutumu və onların gigiyenik qiymətləndirilməsi. Məktəbəqədər uşaq müəssisələrinin (körpələr evi - uşaq bağçası) planlaşdırılmasının gigiyenik prinsipləri.Ərazi və binaya olan tələblər.* | |
| 4. | Ümumtəhsil məktəblərin, internat və texniki-peşə məktəblərinin planlaşmasına olan gigiyenik tələblər. **Predmet:** *Ümumtəhsil məktəblərin, internat və texniki-peşə məktəblərinin planlaşdırılmasının gigiyenik prinsipləri. Əraziyə və binaya olan gigiyenik tələblər. Otaqlarm qarşılıqlı yerləşdirilməsi. Tədris, yataq, yemək, ümumi məktəb, inzibati təsərrüfat təyinatlı otaqlar kompleksinə, tibb məntəqəsi-təcridxanaya və b. olan gigiyenik tələblər.* | 2 |
| 5 | Uşaq və yeniyetmə müəssisələrində işıq və hava-istilik rejiminə olan gigiyenik tələblər. **Predmet:** *Uşaq və yeniyetmə müəssisələrində hava istilik rejimi. Müxtəlif otaqlarda hava mübadiləsinin gigiyenik normaları. Təbii və süni ventilyasiya. Aerasiya. Ventilyasiya və havalandırmaya nəzarət. Uşaq müəssisələrində tətbiq edilən isidici qurğuların gigiyenik səciyyəsi.Uşaq və yeniyetməiər müəssisələrində işıqlanmaya olan gigiyenik tələblər. Təbii və süni işıqlanmanın gigiyenik normaları. Uşaq müəssisələrində içməli su təchizatının gigiyenik təşkili. Mərkəzləşdirilmiş və yerli kanalizasiya şəbəkəsi, çirkablarm uzaqlaşdırılması. kanalizasiya qurğuları.* | 2 |

**Cəmi: 10 saat**

## FƏNN ÜZRƏ PRAKTİK MƏŞĞƏLƏ MÖVZULARI:

| № | Mövzuların adı | Saat |
|---|---|---|
| 1 | Mebelin gigiyenik qiymətləndirilməsi. Uşaq müəssisələrində avandanlığın yerləşdirilməsinə gigiyenik tələblər. Uşaq kitabları və dərsliklərin gigiyenik qiymətləndirilməsi. **Predmet:** *Masanın və oturacağın əsas ölçülərinin, rəqəmli və rəngli nişanlanmanın qiymətləndirilməsi. Sinif otaqlarında partanın yerləşdirilməsi, onların əsas ölçülərinin yaş–boy göstəricilərinə uyğunluğunun təyini və qiymətləndirilməsi. Dərsliyin gigiyenik ekspertizası. Kitabın texniki xüsusiyyətlərinin qiymətləndirilməsi.Rəyin hazırlanması, təkliflər.* | 7 |
| 2 | Uşaq paltarı üzərində carı və xəbərdaredici nəzarətini təşkili. Uşaq paltarının gigiyenik qiymətləndirilməsi. Oyuncaqların gigiyenik qiymətləndirilməsi. Çanta və uşaq ayaqqabısının gigiyenik qiymətləndirilməsi. **Predmet:** *Paltarların sanitar fiziki - kimyəvi xüsusiyyətlərinin qiymətləndirilməsi. Oyuncaqlara, çantaya və uşaq ayaqqabısına olan gigiyenik tələblər, qiymətləndirmə. Rəyin hazırlanması, təkliflər.* | 7 |
| 3 | Uşaq və yeniyetmə müəssisələrinin planlaşdırılmasına olan gigiyenik tələblər. Məktəbəqədər müəssisə layihələrinin sanitariya-gigiyenik ekspertizası və yekun rəyin hazırlanması. Məktəbəqədər müəssisənin kompleks sanitar-gigiyenik müayinəsi və müayinə aktının tərtibi. (sərbəst). **Kollokvium I** **Predmet:** *MUM layihəsinin ekspertizası, nəticəsinin təhlili və yekun rəyin hazırlanması. Kompleks sanitar-gigiyenik müayinə sxeminin təhlili. Məktəbəqədər* | 8 |

| | | |
|---|---|---|
| | *müəssisənin kompleks sanitar-gigiyenik müayinəsi və aktın tərtibi* | |
| 4 | Tam orta təhsil müəssisə layihələrinin (ümumtəhsil məktəb, internat məktəb) sanitariya-gigiyenik ekspertizası. Tam orta təhsil müəssisə layihəsinə yekun rəyin hazırlanması. Tam orta təhsil müəssisələrin kompleks sanitar-gigiyenik müayinə sxeminin təhlili. ***Predmet:*** *Tam orta təhsil müəssisə layihəsinin ekspertizası, nəticəsinin təhlili və yekun rəyin hazırlanması. Kompleks sanitar-gigiyenik müayinə sxeminin təhlili.* | 7 |
| 5 | Tam orta təhsil müəssisənin kompleks sanitar-gigiyenik müayinəsi (sərbəst). Tam orta təhsil müəssisənin kompleks sanitar-gigiyenik müayinə aktının tərtibi. **Kollokvium II** ***Predmet:*** *Tam orta təhsil müəssisənin kompleks sanitar-gigiyenik müayinəsi və aktın tərtibi* | 7 |
| 6 | Internat-məktəbinin kompleks sanitar-gigiyenik müayinə sxeminin təhlili. Internat məktəbin kompleks sanitar-gigiyenik müayinəsi və müayinə aktının tərtibi (sərbəst). ***Predmet:*** *İnternat məktəbin layihəsinin ekspertizası və gigiyenik qiymıtləndirmə. Rəyin hazırlanması. Kompleks sanitar-gigiyenik müayinə sxeminin təhlili. İnternat məktəbin kompleks sanitar-gigiyenik müayinəsi və aktın tərtibi.* | 7 |
| 7 | İlk peşə təhsili müəssisə lahiyəsinin sanitar-gigiyenik ekspertizası. İlk peşə təhsili müəssisəsinin kompleks sanitar-gigiyenik müayinə sxeminin təhlili və kompleks sanitar-gigiyenik müayinəsi və müayinə aktının tərtibi (sərbəst iş). **Kollokvium III** ***Predmet:****Peşə - texniki məktəb lahiyəsinin sanitar-gigiyenik təhlili və yekun rəyin hazırlanması. Kompleks sanitar-gigiyenik müayinə sxemi üzrə PTM kompleks sanitar-gigiyenik müayinəsi. Sağlamlşdırıcı təkliflər.Aktın tərtibi.* | 7 |

**Cəmi: 50 saat**

Fənnin bütün mövzuları üzrə nümunəvi testlər elektron variantda hazırlanır və Universitetinin rəsmi www. amu.edu.az saytında yerləşdirilir.

## QİYMƏTLƏNDİRMƏ:

Fənn üzrə kredit üçün lazımi 100 balın toplanması aşağıdakı kimi olacaq:

50 bal-imtahana qədər

O cümlədən:

10 bal- dərsə davamiyyət

10 bal- sərbəst iş

10 bal - bacarıqlar

20 bal- seminar dərslərindən nəzəri biliklərdən toplanacaq ballardır.

50 bal- imtahanda toplanılacaq.

Imtahan test üsulu ilə keçiriləcəkdir, tələbələrə 50 test verilir. Hər bir test bir balla qiymətləndirilir. Səhv cavablanan test düzgün cavablardan yığılan ballardan silir.

## QEYD:

İmtahanda minimum 17 bal toplanmasa, imtaha qədər yığılan ballar imtahan balı ilə toplanılmayacaq. İmtahanda 17 və yuxarı bal, imtahana qədər toplanan ballarla cəmlənir və yekun nəticə aşağıdakı kimi qiymətləndirilir:

A - “Əla” -91-100
B - “Çox yaxşı” -81-90
C - “Yaxşı” -71-80
D - “Kafi” -61-70
E - “Qənaətbəxş” -51-60
F - “Qeyri kafi” -51 baldan aşağı

**SƏRBƏST İŞ:**

Semestr ərzində 10 sərbəst iş tapşırığı verilir. Hər tapşırığın yerinə yetirilməsi bir balla qiymətləndirilir.

Sərbəst iş yazılı formada, word faylı formasında, həcmi 1-2 səhifə (şrift 12) olmalıdır.

Hər bir sərbəst iş tələbənin fərdi fikirlərinin məcmusu olduğu görə plagiat yol verilməzdir.

**SƏRBƏST İŞLƏRİN MÖVZULARI VƏ TƏHVİL VERİLMƏSİNİN SON TARİXİ**

| №-si | Mövzular | Son tarix |
|---|---|---|
| 1 | Uşaq məişət əşyalarının gigiyenası. Oyuncaqların gigiyenik qiymətləndirilməsi. | 4-cü həftə |
| 2 | Uşaq paltarının gigiyenik qiymətləndirilməsi. | 5-ci həftə |
| 3 | Kitabın və mebelin gigiyenik qiymətləndirilməsi. | 6-cı həftə |
| 4 | Uşaq və yeniyetmələr müəssisələrinin layihələşməsinin və inşaatının əsas gigiyenik prinsipləri. | 7-ci həftə |
| 5 | Uşaq müəssisələrinin yaşayış məntəqələrində yerləş-məsinə olan gigiyenik tələblər. | 8-ci həftə |
| 6 | Məktəbəqədər uşaq müəssisələrində qrup və fərdi təcrid anlayışı və onun həyata keçirilməsi. | 9-cu həftə |
| 7 | Ümumtəhsil məktəblərinin planlaşması, zonaları. Məktəb binasının planlaşdırma strukturası. | 10-cu həftə |
| 8 | Internat məktəblərinin planlaşması, otaqlar kompleksinə olan gigiyenik tələblər. | 11-ci həftə |
| 9 | Texniki-peşə məktəblərində istehsalat emalatxanalarına olan gigiyenik tələblər. | 12-ci həftə |
| 10 | Uşaq müəssisələrinin sanitariya-texniki avadanlığına olan gigiyenik tələblər. | 13-cü həftə |

Son tarixdən sonra təqdim olunan sərbəst işlər səbəbindən asılı olmayaraq nəzərə alınmayacaqdır. Sərbəst işlərin nəticələri jurnalda qeyd olunur.

**KURS İŞİ:**

Bu fənn üzrə kurs işi nəzərdə tutulmur.

**TƏCRÜBƏ:**

Bu fənn üzrə istehsalat təcrübəsi nəzərdə tutulur.

## UŞAQ MÜƏSSİSƏLƏRİNİN GİGİYENASI FƏNNİ ÜZRƏ TƏCRÜBİ BACARIQLARIN SİYAHISI

| № | Bacarıq | Bal |
|---|---|---|
| 1 | Məktəbəqədər uşaq müəssələrinin layihəsinin sanitar-gigiyenik ekspertizası və rəyin hazırlanması | 4 |
| 2 | Kitabın gigiyenik qiymətləndirilməsi və rəyin verilməsi | 3 |
| 3 | Mebelin gigiyenik qiymətləndirilməsi və rəyin verilməsi | 3 |
| | Cəmi: | 10 |

## UŞAQ MÜƏSSISƏLƏRIN GIGIYENASI FƏNNI ÜZRƏ TƏCRÜBI BACARIQLARIN SIYAHISI (rəhbərlik)

| № | Bacarıq | Bal |
|---|---|---|
| 1 | Məktəbəqədər uşaq müəssələrinin layihəsinin sanitar-gigiyenik ekspertizası və rəyin hazırlanması | 4 |
| 2 | Kitabın gigiyenik qiymətləndirilməsi və rəyin verilməsi | 3 |
| 3 | Mebelin gigiyenik qiymətləndirilməsi və rəyin verilməsi | 3 |
| | Cəmi: | 10 |

**Metodiki təminat**

1. Əliyev V.Ə. “Uşaq və yeniyetmələr gigiyenası”. Dərslik. Bakı - 1995.
2. Gürzəliyev S.A., Məmmədova Z.B., Süleymanzadə N.Q., Həsənova S.Ə.,Balayeva Ş.M., İsmayılova Z.Q. “Uşaq və yeniyetmələr gigiyenası”. Təcrübə məşğələsi, Bakı – 2010.
3. Məmmədov A.M. “Uşaq və yeniyetmələr gigiyenası”. I – II hissə tədris vəsaiti, Bakı - 1986.
4. Сердюковская Г.Н., Сухарев А.Г. “Гигиена детей и подростков” руководство для санитарных врачей. М. - 1986.
5. Кардашенко В.М. “Гигиена детей и подростков”. Практический занятия. М. - 1983.
6. Кардашенко В.Н. “Гигиена детей и подростков”. М. - 1988.
7. Кучма В.Р. «Гигиена детей и подростков», М. – 2001.